*__Araz Süleymanov__*



# *MƏMMƏD ARAZIM...*

**Dərdi millətimdi, atalı vətən,
Ocaq olub yandı, Məmməd Arazım.
Yığıb sinəsinə dərdlərimizi,
Ürəyin şan-şandı, Məmməd Arazım.**

**Sevirdi mərdliyi, sevirdi düzü,
Heç vaxt əyilmədi, dönmədi üzü.
Qüdrətli, güclüdür şeiri, sözü,
Fırtına, tufandı, Məmməd Arazım.**

**Tarix səhvlə dolu, budurmu qayda,
Haqsızlıq atını çapır, nə fayda.
Dərdi dağa dönüb bu tay, o tayda,
Murov, Savalandı, Məmməd Arazım.**

**Bölünmək dərdini hər oğul çəkə,
Tikanlı məftillər qırıla bəlkə.
Güneyli, qüzeyli bütöv bir ölkə,
Bir Azərbaycandı, Məmməd Arazım.**